**AkademikTarih ve DüşünceDergisi**

**Published by** **Autumn 2022 / 9-3**
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.251

# Azərbaycanda XVII-XVIII Əsrlərdə Dövlət-Din Münasibətləri

**Ceyhun Məmmədov***
**ORCID: 0000-0002-7336-7909**

**Öz**

Əfşarlar imperiyasında məzhəbçilikdənümmətçiliyə-islam birliyinə və türkçülüyə keçid prosesi baş verdi.İmperiyanın idarəçilik dili və bütün millətlərin ünsiyyət vasitəsi türk dili idi. Rəsmi diplomatik yazışmalarda fars dilindən də istifadə edilirdi.Qacarlar dövlətində islam dini siyasi idarəçiliyə o qədər də ciddi təsir edən amil deyildi. Azərbaycan xanlıqlarındaxandaxili, xaricisiyasəti, dünyəvi, dini idarəçiliyi həyata keçirən başçı idi. Lakin xan şəriətə və milli-mənəvi adət-ənənələrə riayət edirdi. Aliruhanilərxüsusi zümrə kimi ictimai həyatda,dövlət idarəçiliyində fəal iştirak edirdilər.

**Açar sözlər:** Əfşarlar, Məzhəbçilik, Qacarlar Dövləti**,** Islam Dini, SiyasiIdarəçilik, Azərbaycan Xanlıqları**,** Şəriət, Ali Ruhanilər, Dövlət Idarəçiliyi.

**GöndermeTarihi: 30/06/2022** **Kabul Tarihi:20/08/2022**

---

**Azərbaycan Respublikası Milli Məclisinin VI çağırış deputatı, İlahiyyat üzrə fəlsəfə doktoru, Bakü- Azerbaycan, ceyhunmv@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
MƏMMƏDOV, C., "Azərbaycanda XVII-XVIII Əsrlərdə Dövlət-Din Münasibətləri", *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s.590-605.

# The State-Religion Relations in Azerbaijan in the 17th – 18th Centuries

**Jeyhun Mammadov***
**ORCID: 0000-0002-7336-7909**

**Abstarct**

From the 17th to the 18th century, the Afsharid Empire was transitioning from madhhabism to pan-Islamism, advocating Islamic unity and pan-Turkism. The Turkish language served as the language of communication for all peoples and the administrative language in the Empire. The Persian language was also used for official diplomatic correspondence. In the Qajar State, Islam had almost no effect on political governance. During the Azerbaijani khanates**,** the khan was the ruler pursuing domestic and foreign policy and exercising secular and religious powers. However, he adhered to sharia and national spiritual traditions. High religous class, as a specific social class, actively participated in public life and governance.

**Keywords:** The Afsharids, Madhhabism, The Qajar State, Islam, Political Governance, Khanates of Azerbaijan, Sharia, Religious Establishment, Governance

**Received Date: 30/06/2022** **Accepted Date: 20/08/2022**

---

**Member of the Milli Majlis of theRepublic of Azerbaijan of the VI convocation, Doctor of Philosophy in Theology, Baku-Azerbaijan, ceyhunmv@gmail.com, ceyhunmv@gmail.com*

***You can refer to this article as follows:***
MƏMMƏDOV, C., "Azərbaycanda XVII-XVIII Əsrlərdə Dövlət-Din Münasibətləri", *AcademicJournal of History and Idea,*Vol. 9, Issue3, 2022, p.590-605.

# Государственно-Религиозные Отношения В Азербайджане В XVII-XVIII вв.

**ДжейхунМаммадов***
**ORCID: 0000-0002-7336-7909**

**Резюме**

В империи афшаров в XVII-XVIII веках происходил процесс перехода от мазхабизма к панисламизму – Исламскому единству и тюркизму. Административным языком в империи и средством общения всех народов был тюркский язык. В официальной дипломатической переписке также использовался персидский язык. В государстве Каджаров исламне оказывал столь серьезного влияния на политическое управление. В азербайджанских ханствахxан был главой, осуществлявшим внутреннюю и внешнюю политику, светское и религиозное управление. Однако он придерживался шариата и национально-духовных традиций. Высшее духовенство, как особое сословие, принимало активное участие в общественной жизни и управлении государством.

**Ключевые слова:** Афшары, мазхабизм, государство Каджаров,ислам, политическое управление, ханства Азербайджана, шариат, высшее духовенство, государственное управление

**Получено: 30/06/2022** **Принято: 20/08/2022**

---

* *Депутат Милли Меджлиса Азербайджанской Республики VI созыва, доктор философии по теологии, Баку-Азербайджан, Баку-Азербайджан, ceyhunmv@gmail.com*

***Ссылка на статью:***
MƏMMƏDOV, C., “Azərbaycanda XVII-XVIII Əsrlərdə Dövlət-Din Münasibətləri”, *академическая история и мысль,* T.9, NO.3, 2022, c.590-605.

## Giriş

XVII-XVIII əsrlərdə Nadir şah Əfşarın (1688-1747) yaratdığı Əfşarlar dövlətində din siyasətindən danışarkən onun ən böyük xidməti islam birliyinə, müsəlmanların vəhdətinə cəhd etməsidir. Nadir şahın Əfşarlar dövlətində Səfəvilərin artıq iranlılaşmış şiəçilik ideologiyasını aradan qaldırılması və İslam birliyinə nail olmaq ideyası əsas yer tuturdu.

Qacarlar hökmdarları şiəliyi dövlətdən ayırmağa çalışmış, ingilislərin təsiri altında vətən, millət ideyalarından çox dini məzhəbçilik əsasında dövləti idarə etmişlər.

Azərbaycan xanlıqlarında xanlar dini və dünyəvi hakimiyyəti öz əlində çəmləşdirmiş, müsəlman ruhaniləri dövlət idarəçiliyində fəal iştirak edir, maarif, təhsil, şəriət məhkəməsində rol oynayırdılar. Tədqiqatçılar A.Bakıxanov, N.Nərimanov, F.Şumer, L. Boqdanov, Ə.Tahirli, F.Ələkbərli Əfşarlar dövlətinin islam birliyi ideyasının şiə-sünni parçalanmasına qarşı durduğu,Yaxın Şərqdə Osmanlı imperiyası ilə sülh və əmin-amanlıq şəraitinin yaratdığını göstərirlər. N.Nəsibli, F.Ələkbərli, Ə.Pəkrəvan, Qacarlar dövlətinin din siyasətini tədqiq etmişlər. T.Mustafazadə, Ə.Abbasov T.Svyatoxovski və V.İvanenko Azərbaycan xanlıqlarındakı dövlət-din münasibətlərini araşdırmışlar.

Məqalənin məqsədi XVII-XVIII əsrlərdə Azərbaycanda dövlət və dinin qarşılıqlı münasibətləri prosesini araşdırmaqdır. Məqalənin metodologiyasıtədqiqatın gedişində sistemli, müqayisəli-tarixi struktur – funksional metodlardan istifadə edilmişdir.Ümumi elmi tarixi metoddan da istifadə etməklə XVII-XVIII əsrlərdə Azərbaycanda dövlət-din münasibətlərinin formalaşması, spesifik xüsusiyyətləri tədqiq olunmuşdur.

Tədqiqat nəticəsində məqalədə elmi yeniliklə səciyyələnən nəticələr əldə edilmişdir:

- XVII-XVIII əsrlərdə Azərbaycanda dövlət-din münasibətlərinin vəziyyəti təhlil edilmişdir.

- Əfşarlar dövlətinin islam birliyi siyasəti, Qacarlar dövlətində, Azərbaycan xanlıqlarında dövlət-din münasibətləri araşdırılmışdır.

Tədqiqat işinin dinşünaslıq, dinin fəlsəfəsi problemləri üçün nəzəri əhəmiyyəti vardır. Eyni zamanda dövlət-din tarixinin qarşılıqlı münasibətlərinin səmərəliliyini yüksəltmək üçün tədqiqatın mühüm rolu vardır.

### 1-Əfşarlar dövlətinin islam birliyi siyasəti

Nadir şah irançı şiə üləmalarına qarşı çıxaraq Səfəvilər imperiyasının ərazilərini nəinki bərpa etdi, həm də onu genişləndirdi.Nadir şah Əfşar tarixdə özünün milli-dini islahatları ilə şöhrət qazandı. Bəzi tədqiqatçılar onu "İran hökmdarı" kimi təqdim edirlər. Halbuki o, sırf türk hökmdarıdır. Nadir şah xalqın istəyi və razılığı ilə şahlıq taxtına çıxmışdır. Nadirqulu xan 1736-cı ildə Muğanda qurultay çağıraraq şahlığa çıxmasının şərtlərini elan etmişdir: *"Nadirqulu xan yalnız qurultay iştirakçılarının nəzərinə çatdırdığı üç şərti qəbul edəcəkləri, yəni II Şah Təhmasibin və onun övladlarından hər hansı birinin şahlıq iddiasına düşdüklərində cəzalandırılmalarına etiraz etməyəcəkləri, "şiəliy"in radikal tərəflərinin aradan qaldırılmasına razılıq verəcəkləri və onun öz övladlarına sədaqətli olmalarına and içəcəkləri halında Səfəvi taxtına oturacağını bildirmişdir".*[1] Göründüyü kimi, bu şərtlərdən biri də "şiəliyin" radikal tərəflərinin aradan qaldırılması zərurəti idi.

Nadir şah Əfşarın *"sünni-şiə*" məsələsini həll etməkdə əsas məqsədi türklər arasındakı ziddiyətləri aradan qaldırmaq idi. "*Nadir şah Əfşarı düşündürən İran milli dövləti deyil, Türklərin idarə etdiyi iki dövlətdə "sünni-şiə" məzhəbçiliyini aradan qaldırmaq, dolayısıyla da islam birliyini bərqərar etməklə həmin dövlətlərin idarəediciləri olan Türk sülalərinin məzhəb düşmənçiliyinə son qoymaq idi. Ancaq Nadir şah Əfşar Səfəvilərin xələfi kimi məzhəb məsələsi çözülmədən iki türk dövləti arasında düşmənçiliyə son qoyulmasının mümkünsüzlüyünü də yaxşı bilirdi".*[2] Bu mənada Nadir şahın din siyasətini yaxşı bilən N.Nərimanov, "*Nadir şah*" əsərində həmin dövrün tarixçisi Mirzə Mehdi xanın dilindən bu siyasəti belə ifadə etmişdir. "*İki məzhəbin birləşməyi həqiqətən gözəl bir fikirdir. Çünki ədavət bilmərrə aradan götürülər, mədəniyyət artar, hər iki millət qüvvətlənər. Mollalara məvacib kəsmək də mənim təsəvvürümə görə, yaman deyil. Padşahlıqdan məvacibləri olsa, bir para ağla gəlməyən şeyləri aşkara millətin, vətənin, dövlətin zərəri olan sözləri xalqın aralarında nəşr etməzlər. O gün (Nadir şah) mənə deyirki, Mirzə! Sən elə bilmə ki, mən ruhanilərə düşmənəm. Xeyr, dinə rövnəq verən mollalar mənim canımdırlar. Dinə rəxnə salan mollalara, həqiqət mən düşmənəm. Bunlar zahirdə dinpərəst, batində dini tar-maredirlər. Bəli*

---

[1] Ədalət Tahirzadə, *Nadir şah Əfşar (tərcümeyi-hal oçerki)*, Kür, Bakı 2002, s. 12.

[2] Faiq Ələkbərli, *Türk sivilizasiyasına giriş: Turan məfkurəsi və tanrıçılıq,* Elm və təhsil, Bakı 2021, s. 203.(Bu eser, *Turan Uygarlığına Giriş: Turan Mefkuresi ve Tanrıcılık* adıyla 2020 yılında Alparslan Demir'in Türkiye Türkçesine çevirisi ile Astana Yayınları tarafından yayımlanmıştır).

*fikir etdikcə görürsən insafən ağıllı qanunlardır, həqiqət, həqiqət gözəl fikirlərdir, amma heyfa, qədrini bilən yoxdu".*[3]

Beləliklə, məzhəb birliyini türklərin birliyinə çevirməklə Nadir şah artıq fars şiəliyinə çevrilən və dağıdıcı funksiyanı yerinə yetirən şiəliyə qarşı çıxaraq dini islahatlarının müsbət əhəmiyyətini göstərmişdir: *"Bundan sonra müsəlmanlar arasında nifaq və ikitirəlik olmamalıdır. Şah İsmayıl Səfəvi zamanında yaranmış bu hal indi də davam etdirilir. Bu hala səbəb İran torpağında fitnə-fəsad yaradan məzhəb ayrılıqlarıdır. Nə qədər ki, bu pis hal ortadadır, fitnə və intriqa da bərqərardır".*[4]

A. A. Bakıxanov yazır ki, Nadir şahın Qurultayda irəli sürdüyü təkliflərdən sonra, *"İran üləmasının ittifaqı ilə ümumxalq qarşısında belə bir qərar çıxarıldı: bəzi məsələləri dəyişdirmək və şərəfli (dini) şəraiti sabitləşdirməklə, iki məzhəb-şiə və sünni məzhəbləri arasındakı ixtilafa nəhayət verilib İslam əhalisi arasındakı ədavət qaldırılsın".*[5]

Əslində Nadir şahın milli-dini islahatları ilk növbədə "*sünni-şiə*" probleminin türk-islam dünyasına zərəri aradan qaldırmağa yönəlmişdir. Bu məqsədlə Nadir şah Sultanı Mahmuda yazdığı məktublarında *"məzhəb məsələsinə son qoyulmasının, bu anlamda cəfərliyin 5-ci təriqət kimi qəbul edilməsinin önəmliyindən bəhs etmişdir".*[6]

Nadir şah Sultan Mahmuda yazırdı ki, Səfəvilər dönəmində yanlış olaraq islam dinində məzhəbçilik qızışdırılmışdır. O, bunu sünnəyə əməl edilməməsi kimi qiymətləndirmişdir.

Bəzi ehtimallara görə Nadir şah islam birliyi ideyasının qurbanı olmuşdur. Bunu ilk əvvəl A. A. Bakıxanov, müasir tədqiqatçılardan F. Ələkbərli xüsusi qeyd etmişlər. "*Əslində Nadir şah Əfşara sui-qəsd təşkil edənlər zahirən doğmaları, amma əslində irançı şiə ruhaniləri və onların havadarları idilər. Onlar Nadir şahın ətrafındakı bəzi xanları da inandıra bilmişdilər ki, Nadir şahın şiəçilik məzhəbini aradan qaldırmaq istəyi "İran" üçün çox zərərlidir. Şiəçiliyin aradan qaldırılmasını "İran dövləti"nin sonu kimi qələmə verən İranlı/Fars etnik ünsürləri və havadarları əslində öz vəziyyətlərini, daha çox da milli gələcəklərini düşünürdülər. Onlar yaxşı anlayırdılar ki, əgər Nadir şahın ortaya atdığı şiə-sünni məsələsi həllini taparsa, öncə iki türk dövləti arasında islam birliyi, daha sonra türk birliyi ideyası gerçəkləşəcək, bununla da onların xəyallarında yaşatdığı "İran" birdəfəlik aradan qalxacaq, düşüncə və idarəetmə baxımından yalnız Turan var olacaqdır*".[7]

---

[3] Nəriman Nərimanov, "Nadir şah", *Seçilmiş əsərləri*, Lider nəşriyyatı, Bakı 2004, s.144-145.
[4] Tahirə Həsənzadə, *XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri*, Elm və təhsil, Bakı 2013, s. 36.
[5] Abbasqulu Ağa Bakıxanov, *Gülüstani-İrəm*, Minarə, Bakı 2000, s.171-172.
[6] Məhəmməd Hüseyn Qüddüsü, *Nadir şah,* Gənclik, Bakı 1999, s.162.
[7] F.Ələkbərli, *a.g.e.*, s. 205-206.

Nadir şah Əfşar şiəliyin islam və türk birliyinə ədavət, ayrı-seçkilik parçalanma gətirdiyini, buna görə də o, "irançı" şiəliyi aradan qaldırıb cəfəriliyi ortaya qoymaq istəyirdi. O, buna mane olan hər kəsi, hətta oğlunu belə cəzalandırmaqdan çəkinməmişdir. Rus müəllifi L. Boqdanovun da qeyd etdiyi kimi, *Səfəvilərdə şiəçiliyin imamlar nəslinin davamçısı kimi hakimiyyətə qanuni sahib olmaq üçün zəruri olduğu halda, Nadir şah Əfşar bunu, parlaq şəkildə zərərli götür, eyni zamanda sünni-şiə məzhəbindən asılı olmayaraq hamının şəriət və Allah qarşısında bərabər olması ideyasını irəli sürürdü; bu addımla Osmanlının iki əsrdən çox Səfəvilər üzərində apardığı məzhəb uğrunda müqəddəs müharibələrinə də son qoymuş olurdu".*[8]

Nadir şah cəfəriliyi 5-ci təriqət kimi qardaş Türkiyə tərəfindən tanınmasına nail olmasa da iki türk imperiyasının sülh, əmin-amanlıq şəraitində yaşamasına müvəffəq ola bildi. *"Hətta iki imperiya arasında sülh müqaviləsi də bağlandı".*[9]

Nadir şah məzhəbçilikdən islam ümmətçiliyinə, türk birliyinə keçidi təmin edə bildi. Lakin bu birliyə qarşı İran fars şiəçiliyi onun havadarları ingilislər, amerikalılar və ruslar, fransızlar amansız mübarizə aparırdılar.

F.Ələkbərli Nadir şahın fiziki cəhətdən məhv edilməsinin, ona sui-qəsd edilməsinin arxasında Nadir şahın sünni-şiə məzhəbçiliyini aradan qaldırmaq ideyasının durduğunu göstərir və onun bu fikirlə tamamilə razılaşmaq olar*: "Məhz onun bu ideyasını dərindən anlayan farsdilli şiə din xadimləri, hakimiyyətə can atan türk şiə qruplar və onların havadarları (ruslar, ingilislər) öncə Nadir şah Əfşarın ən sadiq ətrafını, daha sonra özünü aradan qaldırmaq qərarını verdilər. Farsdilli şiə mollaları Nadir şahın yaxın ətrafında olan bəzi türk xanlarını, inandırmışlar ki, Səfəvi şiəçiliyi aradan qalxsa, yalnız dövlətin deyil, onların da sonu gələcək. Bir tərəfdən Osmanlının "sünni-şiə" məzhəb davasını aradan qaldırmaq istəməməsi, digər tərəfdən iranyönlü şiəçilərin əliylə bəzi xanlar tərəfindən sui-qəsdə məruz qalması yalnız Əfşarlara deyil, türk islam dünyasının birliyinə də çox ağır zərbə oldu. Bunu, Bakıxanov daha dəqiq görmüş: "Nadir şah atalıq şəfqətini toplayıb, şahzadəni kor etdirdi və özünün dövlət çırağını söndürdü. Bundan sonra, Nadir şah hamıdan bədgüman olub, məmləkəti idarə etmək işlərində məsləkini dəyişdi".*[10]

Deməli, Nadir şah Əfşarın fiziki cəhətdən məhv edilməsinə səbəb sırf milli-dini birlik məsələləri olmuşdur. *"Bir sözlə, Nadir şah Əfşarın qətlinin əsil səbəbkarlarını göstərən Ə. Tahirzadənin də qeyd etdiyi kimi Nadir şahın (o cümlədən Ağa Məhəmməd şah Qacarın)*

---

[8] L.Bogdanov, "Dukhovenstvo: Mudzhtekhidy i ikh rol' v gosudarstve Sefevidov. Bor'ba Nadir shakha v shiitstvom", Drevniye tsarstva vostoka, cost. Shareva, I.G., AST, Moskva 2003, s.190.
[9] Ə.Tahirzadə, *a.g.e.*, s. 21.
[10] A.Bakıxanov, *a.g.e.*, s. 174.

*faciəli ölümünü adi, təsadüfi bir qətil kimi qələmə vermək kökündən yanlışdır. Çünki bu qətlin arxasında çar Rusiyası, İngiltərə və Fransa dayanırdı".*[11]

Əslində Nadir şahın fars şiəçilərini aradan qaldırmaq istəyi Böyük Britaniya, Rusiya və Fransanın Şərq siyasətinə zərbə vura bilərdi. Onlar fars şiəçiliyilə birlikdə islam-türk birliyinin qatı əleyhdarları idilər.

Əhməd Ağaoğlu da yazırdı ki, türk birliyi məsələsində Sultan Səlimdən sonra Nadir şah Əfşar mühüm rol oynamışdır.*"Nadir şah bu işdə daha irəli getdi; Türküstanı, Buxaranı, Xivəni aldı və Osmanlılara birləşmək istədi; sünni-şiə iftilaflarını aradan qaldıraraq vahid bir millət və vahid bir ümmət* qurmaq *sevdasına düşdü. Fəqət bu sevdaya da İstanbulun inadı mane oldu".*[12] Faruk Sümerə görə də, Osmanlı sultanı türk kimliyi ideyasına etinasız olmuş, onun şiə məzhəbini: aradan qaldırmaq, islam birliyini həll etmək üçün apardığı milli-dini islahatları Osmanlı dövlət adamları lazımi şəkildə qiymətləndirə bilməmişlər. Oyazır: *"Nadir şah ölkəni qəsbkar əfqanlardan xilas etməklə bərabər özü də fateh bir hökmdar idi. Ürəyində səmimi bir Türkmənlik duyğusu daşıyırdı. Digər tərəfdən İran türklüyünü Türkiyə və Orta Asiya türklüyünə yaxınlaşdırmaq üçün məzhəbi bir islahata girişmişdi. Təəssüf ki, ölümü bu qayənin gerçəkləşməsinə aman vermədi".*[13]

Bir sözlə, Nadir şahın ölümündə türk-islam birliyinin əleyhdarları əsas rol oynamış, bu isə təkcə dini, milli-mənəvi vəhdətin deyil, vahid Azərbaycan dövlətçiliyinin də parçalanmasına gətirib çöxarmışdır.

F. Ələkbərli haqlı olaraq yazır: "*Halbuki Nadir şah şiə-sünni düşüncəsinin aradan qaldırılmasıyla, bunun müqabilində sadəcə, İslam dininə tapınan, amma dünyəvi olacaq böyük bir Türk dövlətinin arzusunda idi. Bunu, Nadir şah Osmanlı Sultanına yazdığı məktublarında da açıq şəkildə ifadə etmişdir. Bizcə, Nadir şahın faciəli ölümü Türk İranının fars İranına çevrilməsi yolunda mühüm bir adım oldu. Belə ki, Səfəvilər dönəmində xeyli dərəcədə "şiəçilik" ideologiyası altında farslaşmış türklər Nadir şahın ölümüylə böyük bir zərbə almış oldu. Hətta, az qala həmin dövrdə Türkün əski Midiyada hakimiyyət sürməsinə son qoyula bilərdi. Ancaq sonralar Ağa Məhəmməd Şah Qacarın şəxsi fədakarlığı, eyni zamanda fars "şiəçiliy"inin türkün ruhuna tamamilə hakim kəsilməsinin nəticəsi olaraq yenidən türklər hakimiyyətə gəldilər".*[14]

---

[11] Ə.Tahirzadə, *a.g.e.*, s. 25-26.
[12] Əhməd bəy Ağaoğlu, "İran və inqilabı", *Seçilmiş əsərləri,* tər. ed. Əz.Mirəhmədov, V.Quliyev, Şərq-Qərb, Bakı 2007, s.123
[13] Faruk Sumer, *Oğuzlar,* Yazıçı, Bakı 1992, s. 285.
[14] F.Ələkbərli, *a.g.e.*, s. 217.

Bundan sonra Azərbaycan xanlıqlara bölündü. Azərbaycan xanlıqlar arasında birlik yox idi.Onlar dini siyasətlərində ya sünnilik, ya da şiəlik məzhəbini üstün tuturdular. Nadir şah Əfşarın islam birliyi uğrunda həyata keçirdiyi radikal islahatlardan sonra şiə-sünnü məzhəbçliyinə son qoyulmuşdu.

**2-Qacarlar dövlətinin din siyasəti**

XVIII əsrdə Səfəvilər imperiyası ərazisində yaranan Qacarlar türk dövləti şiəliyi dövlətdən ayrı tutmağa çalışırdı. Bunun səbəbini N. Nəsibli belə izah edir. Ağa Məhəmməd Şah Qacar *"yeni dövlətdə dini ideologiyaya, ya da din başçılarına ehtiyatla yanaşmış, digər tərəfdən də mümkün qədər dövlətdən uzaq tutmağa çalışmışdır".*[15]

Sonrakı Qacar hökmdarı Fətəli xan ingilislərin təsiri altında olmuş, vətən, millət ideyalarından çox dini məzhəbçilik əsasında dövləti idarə etmişdir. Dövlətin idarəçiliyində ingilislərin köməyilə şiə farslar üstünlük təşkil etməyə başladı. *"Deməli, Qacarların dünyəvi-yenilikçi bir dövlət deyil, dini-məzhəbçi dövlət olmasında ingilislər mühüm rol oynamış, bu zaman dünyəvi-yenilikçi türklərə qarşı da zərdüşti-şiəçi farsları qoymuşlar. Beləliklə, şiə-sünnü məsələsi Qacarların ya da onların hökmdarlarının deyil, ingilislərin böyük əməyi nəticəsində Fətəli şah Qacarın dövründə yenidən baş qaldırmışdı".*[16]

Ancaq Abbas Mirzə əmisi Ağa Məhəmməd şah Qacar kimi daima dini dövlətdən ayrı tutub Şimali Azərbaycanın Qacarlarla birləşməsinə də vətən, millət çərçivəsindən yanaşmışdır. Hətta, bəzi müəlliflərə görə, *"Abbas Mirzə üçün şiə-sünni deyə bir problem heç olmadı, kimsə ondan bu haqda bir tərs davranışa da şahid olmadı".*[17]Abbas Mirzənin əsas məqsədi vətən və millət olduğu üçün, dinə inanc məsələsi kimi baxır, bu anlamda da din başçılarına çox önəm vermirdi. Şübhəsiz, şiəçilik kimliyinə bürünmüş farsdilli zümrə üçün Abbas Mirzənin yenilikçi-dünyəvi ruhlu biri olması qətiyyən qane etmirdi. "*Ona görə də, ruhani başçıları şahın əliylə onu Azərbaycandan uzaqlaşdırmaq, bununla da reformaların qarşısını almaq istəyirdilər".*[18] İngilislər Qacarları dini mühafizəkar dövlətə çevirmək üçün əlindən gələni əsirgəmirdilər. Ona görə də onlar Qacarları dini məzhəbçi dövlətçiliyə istiqamətləndirirdilər.

Qacarlar Rusiya ilə müharibə edərkən Şimali Azərbaycan torpaqlarından işğalçıları çıxarmaq idi. *"Birinci Rusiya-Qacar müharibələrində vətən, dövlət, millət ideyaları din amili ilə müqayisədə ön planda tutulmuşdu. Yalnız 1812-ci ildən etibarən ingilislərin məsləhəti ilə*

[15] Nəsib Nəsibli, *Güneyli-Quzeyli məsələlərimiz,* Aypara 3, Bakı 2013, s. 56.
[16] F.Ələkbərli, *a.g.e.*, s. 258.
[17]Əminə Pakrəvan, *Abbas Mirzə və Azərbaycan*, Qanun, Bakı 2007, s. 14.
[18] Ə.Pakrəvan, *a.g.e.*, s. 18.

*Fətəli şah Qacar Rusiyaya qarşı müharibəni din uğrunda müqəddəs cihad kimi bəyan etmişdir”*.[19]

Qacarlardan Ağa Məhəmməd şah Qacarın eyni zamanda Fətəli şah Qacarın hakimiyyətinin ilk dövrlərində din, ya da dini məzhəbçilik hissləri dövlət idarəçiliyində ciddi bir təsirə malik deyildi. Əlbəttə, bu heç o demək deyil ki, hər iki Qacarlar hökmdarı İslam dini məsələsinə bütünlükdə önəm verməyiblər. Hər halda Əfşarlarla, o cümlədən Nadir şah Əfşarla müqayisədə özlərini Səfəvilərə nisbətən doğma hesab edən “ilk Qacarlar hökmdarları Qızılbaşlıq ya da şiəlik məsələsinə daha ehtiyatlı yanaşmış, onun təbliğatçısı olmasalar da əleyhdarları da olmayıblar. Özəlliklə, Qacarlardan Ağa Məhəmməd şah Qacarla vəlihəd Abbas Mirzənin əsasən, Fətəli şah Qacarın isə müəyyən bir dövrdə Qızılbaşlıq ideologiyasına həlledici faktor kimi yanaşmadığı qənaətindəyik. Ən azı ona görə ki, Qacarlar 1812-ci ilə qədər apardığı daxili və xarici müharibələrdə şiə yönlü Qızılbaşlıq ideologiyasından, o cümlədən ruhani başçılarının fətvalarından demək olar ki, istifadə etməmişdilər”.[20]

**3-Azərbaycan xanlıqlarının dövlət din siyasəti**

Bu dövrdə Azərbaycan xanlıqlarının dövlət din siyasətini nəzərdən keçirərək müəyyən qənaətə gəlmək olar ki, Naxçıvan, Qarabağ, Bakı, Gəncə, Lənkəran xanlıqlarında şiəlik, Şəki, Quba xanlıqlarında sünnilik üstünlük təşkil edirdi. Xanlıqlarda müsəlman ruhaniləri dövlət idarəçiliyində fəal iştirak edirdilər. Ruhanilər maarif, təhsil, məhkəmə (xanlıqlarda yeganə məhkəmə şəriət məhkəmələri idi) sistemində mühüm rol oynayırdılar. *“Müsəlman ruhaniləri vergi və töycünün yığılması bölgüsünə nəzarət edir, faktiki olaraq dövlət idarəçiliyində iştirak edir, xanların saraylarında mühüm yer tuturdular”*.[21]

Digər xanlıqlarda *“dünyəvi və dini hakimiyyət xanların əlində cəmləşmişdi. Belə xanlıqlarda ruhanilərin funksiyaları bir qədər məhdudlaşdırılmışdı. Əhalinin mənəvi həyatında məscid və mədrəsələrdən başqa strateji karvan yolları üzərində qurulmuş müqəddəs yerlər, pirlər, sufi ocaqları və digər dini müəssisələr böyük rol oynayırdı. Bir çox xanlıqlarda dünyəvi hakimiyyət dindən ayrı idi, dini xadimlər əhəmiyyətli müstəqilliyə malik idilər. Sünni ruhanilərlə müqayisədə dövlət idarəçiliyində şiə ruhanilərin yeri və rolu fərqli və daha əhəmiyyətli idi”*.[22]

---

[19] *Azərbaycan tarixi*, məs. red. İsmayılov, M., C.4, Elm, Bakı 2007, s. 35.
[20] F.Ələkbərli, *a.g.e.*, s. 256.
[21] Nesrin Aleskerova, *Islam v Azerbaydzhane: istoriya i sovremennost*, Heinpish Böllİtifdung, Tbilisi, South Caucasusregionhttps:ge.boell.org/en/2005/01/16/islam-v-azerbaydzhane-istoriya-i-sovremennost (15.01.2005).
[22] Rəsul Hüseynli, *Azərbaycan ruhaniliyi (Xanlıqlar dövründən sovet işğalınadək)*, Kür, Bakı 2002, s. 17.

Beləliklə, erkən və sonrakı orta əsrlərdə Azərbaycanda xristianlıq dövlət dininə çevrildi, islam isə dövlət idarəçiliyində əsas aparıcı amillərdən biri idi. Şiələr və sünnilər Cənubi Qafqazda gedən müharibədə Qacarlar və Osmanlılar tərəfdən bir-birilərilə vuruşurdular. Tədqiqatçı Əli Abbasov yazır: *"Azərbaycanda özünəməxsus şiə-sünnü, müsəlman ənənələri "ekumenizm" formalaşmışdı"*.[23]

T. Syatoxovski yazır ki, "Xanlıqlar dövründə şiə ruhanilərinin başında müctəhidlə ali şiə müctəhidi-ayətulla dururdu. Ruhanilərin qalan nümayəndələri ali və aşağı qruplara bölünürdü. Birinci qrupa şeyxülislam, müftilər və qazilər daxil idi. Lakin XIX əsrin əvvəllərinədək Azərbaycan xanlıqlarında müfti vəzifəsi yox idi. Bu dövrdə şiələr ən hörmətli müctəhidlər arasından şeyxülislamı seçirdilər. Sünnilər arasında ən ali nüfuzlu dini vəzifə müfti idi. Sünnilərin əksəriyyət təşkil etdikləri xanlıqlarda (Şəki, Şirvan, Dərbənddə) ruhaniliyə xan özü başçılıq edirdi. O, hər bir mahala bir və ya qazi təyin edirdi ki, məhkəmə qərarlarına icra etsinlər. Şiə əhalisinin üstünlük təşkil etdiyi xanlıqlarda xanın təyin etdiyi şeyxülislam başçılıq edirdi. Şeyxülislam dünyəvi hakimiyyət və şiə ruhaniliyi arasında vasitəçi idi".[24]

Feodal nərdivanının ən yüksək pilləsində xan dururdu. Xan həm daxili, həm də xarici siyasətdə tamamilə suveren idi, bütün feodallar ona tabe idilər. Lakin xan şəriətin başlıca əsaslarını və yerli adətləri poza bilməzdi.[25] Xandan sonrakı yeri xan ailəsinin üzvləri tuturdu.

Ali ruhanilər də hakim feodal sinfinə yaxın vəziyyətdə idi. Ruhanilər xüsusi zümrə idilər. Ruhanilərin bir hissəsi rəhbəredici, eləcə də hüquqi məsələlərdə həlledici səsə malik olan axundlar, əfəndilər, qazılar öz mövqelərinə görə feodal sinfinə daxil idilər. Yüksək vəzifəsi olmayan, lakin ali dini təhsil vermək hüququ olan müdərrislər, görkəmli ilahiyyatçılar da feodal sinfinə daxil edilə bilər. "*Ruhanilər zümrəsinin orta və aşağı təbəqəsinə daxil olanlar-özlərini yalnız dini ibadətə və ayinlərin icrasına həsr edən imamcümələr, pişnamazlar, mərsiyəxanlar, vaizlər, mollalar, əsasən ibtidai dini təhsillə məşğul olan məktəbdar mollalar isə öz vəziyyətlərinə görə feodallarla kəndlilər arasında bir mövqedə dururdular. Azad ruhanilər - seyidlər, ağamirlər, şeyxlər və bəzi mollalar da bu mövqeyə malik idilər"*.[26] Aşağı təbəqəyə daxil olan və məscidə xidmət edən "*müəzzinlər, xadimlər, mürdəşirlər isə sosial vəziyyətlərinə görə yoxsul və ortabab kəndlilərdən heç nə ilə*

[23] Ali Abbasov, "Islam v sovremennom Azerbaydzhane obrazy i realii", Cbornik Azerbaydzhan i Rossiya obshchestvo i gosudarstvo, Letniy sad, Moskva 2001, c. 278-283.
[24] Tadeush Svetokhovskiy, "Islam i natsional'noye samosoznaniye na pogranichnykh territoriyakh Azerbaydzhana", Religiya i politika na Kavkaze. Materialy mezhdunarodnoy konferentsii, Kismi, Yerevan 2004, s. 8.
[25] Kolonial'naya politika rossiyskogo tsarizma v Azerbaydzhane v 20-60-kh gg. KHIKH v., CH. I, Izd-vo AN SSSR, Moskva-Leningrad 1936, c. 137.
[26] Tofiq Mustafazadə, *Quba xanlığı,* Elm,Bakı 2005, s. 69.

*fərqlənmirdilər"*.[27] Ruhanilərin başlıca gəliri vəqf mülklərindən toplanan torpaq rentasından, habelə bütün əhalidən toplanan zəkat və fitrədən ibarət idi.

Xanlıqlarda irsi idarəçilik, yəni monarxiya rejimi mövcud idi. Monarxiyanın başında qeyri-məhdud qanunverici, məhkəmə və icra hakimiyyətinə malik xan dururdu. Hakimiyyət atadan böyük oğula keçirdi. Xanın hakimiyyəti mütləq, qeyri-məhdud səciyyə daşıyırdı. Xan hakimiyyəti həm icra formasında həm də feodal hüququnun yardımı ilə məhkəmə formasında gerçəkləşdirirdi. Hüquq qeyri- rəsmi səciyyə daşıyırdı. Onun mənbəyi şəriət, ilk növbədə Quran idi. Hüququn digər, daha az vacib olmayan mənbəyi yerli adətlər idi. Xan hakimiyyətində iki ünsür: "*prinsipcə müstəbidlik,rejiminə görə feodal ünsürləri çulğaşırdı"*.[28] Xan mütləqiyyətinin normativ hüquqi sənədi xan fərmanları idi.

Xanların yanında "Divanxana" və yaxud "Xan şurası" mövcud idi. Divanxana məşvərətçi orqan idi. Burada mühüm dövlət məsələləri: hərb və sülh, vergilərin təyin olunması və toplanması, itaət göstərməyən bəylərə divan tutulması və onların əmlakının müsadirə olunması, mühüm cinayət işləri və digər dövlət əhəmiyyətli məsələlər nəzərdən keçirilirdi. Xan divansız da qərar qəbul edə bilərdi.Divanxanada ən yüksək vəzifələr vəzir, divanbəyi, qalabəyi, xəzinəağası, qoşunnavis, fərrasbaşı idi.

Xanlığın idarə olunmasında məhkəmə böyük yer tuturdu. Məhkəmə sistemi demək olar ki, bütünlüklə ruhanilərin nəzarəti altında idi. Şəriət məhkəmələrinə əsasən kənd, mahal qazıları və xanlığın baş qazisi rəhbərlik edirdi. Lakin məhkəmənin hökmü şübhə doğurduqda xan məhkəmənin işinə müdaxilə edə bilərdi. Məhkəmədə müsəlman hüququ böyük təsirə malik idi. Dini-şəriət məhkəməsi ən müqəddəs və ədalətli məhkəmə sayılırdı. V.İvanenko yazırdı ki, "*daha çox adi hüquq əsasında və öz bildiyi kimi hərəkət edən xanların özləri də, bir çox hallarda alim axundların məsləhətinə qulaq asır və hətta bir qədər dolaşıq və mürəkkəb işləri onların mühakiməsinə verirdilər"*.[29] Dövrün müasirinin yazdığına görə bütün edam cəzaları,bu halda və bütün başqa hallarda öz bildiyi kimi hərəkət edən,heç nədə və heç kimə hesabat verməyən xanın iradəsindən asılı idi.

Müsəlman hüququ və yaxud şəriət Rusiya və Avropa qanunvericiliyi ilə müəyyən oxşarlıqları olmaqla yanaşı çoxlu özünəməxsus xüsusiyyətlərə malik idi. Bu xüsusiyyətlər təkcə ailə və varislik hüququnda (burada onlar labüd idi) deyil, həm də sahiblik hüququ və təəhüd üzrə hüquqlarda var idi. Şəriətə görə torpaq üzərində ali sahiblik hüququ yalnız

---

[27]Rəsul Hüseynli, "Azərbaycan ruhaniliyi XVIII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında", Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı 1996, s.10.

[28] V.N.Ivanenko, "Grazhdanskoye upravleniye Zakavkaz'yem ot namestnichestva Velikogo knyazya Mikhaila Nikolayevicha (Istoricheskiy ocherk)", Utverzhdeniya russkogo vladychestva na Kavkaze, T. 12, Tiflis 1901, c. 136-137.

[29] V.N.Ivanenko, *a.g.e.,* c. 140.

dövlətə məxsusdur və torpağa sahiblik hüququ ali hakimiyyət tərəfindən xüsusi şəxslərə sanki müvəqqəti və bu şəxslər üçün müəyyən və məcburi, lakin hakimiyyətin özü üçün təsadüfi və qeyri-məcburi şərtlər əsasında verilir.

Şəriət cinayət hüququ sahəsində daha çox özünəməxsus xüsusiyyətlərə malikdir. Cinayəti qızışdıranlar, cinayətə yol verən və onu gizlədənlər cəzalandırılmırdılar; qətl, yara və zədə vurmaq yalnız zərərçəkənin şikayəti əsasında təhqiq olunur, qan intiqamı öldürülənin yaxın qohumlarının ayrılmaz hüququdur; lakin tərəfləri pul ödənişinə və barışığa razı salmaq məhkəmənin borcudur*:" edam cəzası, bədən cəzası, pul cərimələri yeganə cəza tədbirləridir; özbaşınalığa, qanuna riayət etməmək cəzalandırılmır"*.[30]

Xanlıqlarda feodal hüququnun mənbəyini hakim sinfin iradəsi, bu sinfin mənafelərinin ifadəsi kimi xanın özünün iradəsi qanuniləşdrilmiş yerli adətlər idi. Adətən xanlığın ali hakimiyyət orqanı tərəfindən edam cəzasına məhkum olunmuş şəxsin əmlakı xanın sərəncamına keçirdi.

---

[30] V.N.Ivanenko, *a.g.e.,* c.142.

## Nəticə

Beləliklə, XVI əsrdə Səfəvilər şiə məzhəbini dövlət dininə çevirməklə türk dünyasının parçaladılar. Azərbaycanda islamın regional formaları sufilik geniş yayıldı. Şirvanşahlar, Ağqoyunlu və Qaraqoyunlu hökmdarları da şiəliklə bağlı idilər. XVII-XVIII əsrlərdə Nadir Şahın başçılıq etdiyi Əfşarlar imperiyasında islam birliyi və türk birliyi ideyaları üstünlük təşkil etdi. Lakin şiə üləmaları, xüsusilə farslar və onların havadarları Böyük Britaniya, Rusiya, Fransa türk birliyinə qarşı çıxaraq şiə məzhəbçiliyinə əsaslanan, fars elementlərinin üstünlük təşkil etdiyi mühafizəkar dini-dövlət yaradılmasını istəyirdilər. Buna görə də Əfşarların hökmdarı və Qacarların hökmdarları Ağa Məhəmməd şah Qacar sui-qəsd nəticəsində öldürüldülər. XVIII əsrdə Azərbaycan xanlıqlarında şiə və sünni ruhanilərinin rəhbərlik etdiyi qurumlar dövlət idarəçiliyində yaxından iştirak etdilər. Bəzi xanlıqlarda xanlar dünyəvi və dini hakimiyyəti öz əllərində cəmləşdirirdilər. XIX əsrdə Azərbaycan Rusiya imperiyası və Qacar İranı arasında parçalandı.Şimali Azərbacanda din Rusiya idarəçiliyi, Cənubi Azərbaycanda isə şah rejimi şəraitində inkişaf etməyə başladı.

**Ədəbiyyat**

TAHIRZADƏ, Ə., *Nadir şah Əfşar (tərcümeyi-hal oçerki)*, Kür, Bakı 2002.

ƏLƏKBƏRLI, F., *Türk sivilizasiyasına giriş: Turan məfkurəsi və tanrıçılıq,* Elm və təhsil, Bakı 2021.

NƏRIMANOV, N., "Nadir şah", *Seçilmiş əsərləri*, Lider nəşriyyatı, Bakı 2004.

HƏSƏNZADƏ, T., *XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri*, Elm və təhsil, Bakı 2013.

BAKIXANOV, A. A., *Gülüstani-İrəm*, Minarə, Bakı 2000.

QÜDDÜSÜ, M.H., *Nadir şah,* Gənclik, Bakı 1999.

BOGDANOV, L., "Dukhovenstvo: Mudzhtekhidy i ikh rol' v gosudarstve Sefevidov. Bor'ba Nadir shakha v shiitstvom", Drevniye tsarstva vostoka, cost. Shareva, I.G., AST, Moskva 2003.

AĞAOĞLU, Ə. B., "İran və inqilabı", *Seçilmiş əsərləri,* tər. ed. Əz.Mirəhmədov, V.Quliyev, Şərq-Qərb, Bakı 2007.

SÜMER, F., *Oğuzlar,* Yazıçı, Bakı 1992.

NƏSIBLI, N., *Güneyli-Quzeyli məsələlərimiz*, Aypara 3, Bakı 2013.

PAKRƏVAN, Ə., *Abbas Mirzə və Azərbaycan*, Qanun, Bakı 2007.

*Azərbaycan tarixi*, məs. red. İsmayılov, M., C.4, Elm, Bakı 2007.

Nesrin Aleskerova, *Islam v Azerbaydzhane: istoriya i sovremennost*, Heinpish BöllÌtifdung, Tbilisi, South Caucasusregionhttps:ge.boell.org/en/2005/01/16/islam-v-azerbaydzhane-istoriya-i-sovremennost (15.01.2005).

HÜSEYNLI, R., *Azərbaycan ruhaniliyi (Xanlıqlar dövründən sovet işğalınadək)*, Kür, Bakı 2002.

ABBASOV, A., "Islam v sovremennom Azerbaydzhane obrazy i realii", Cbornik Azerbaydzhan i Rossiya obshchestvo i gosudarstvo, Letniy sad, Moskva 2001, c. 278-283.

SVETOKHOVSKIY, T., "Islam i natsional'noye samosoznaniye na pogranichnykh territoriyakh Azerbaydzhana", Religiya i politika na Kavkaze. Materialy mezhdunarodnoy konferentsii, Kismi, Yerevan 2004, s. 8.
Kolonial'naya politika rossiyskogo tsarizma v Azerbaydzhane v 20-60-kh gg. KHIKH v., CH. I, Izd-vo AN SSSR, Moskva-Leningrad 1936, c. 137.

MUSTAFAZADƏ, T., *Quba xanlığı*, Elm,Bakı 2005.

HÜSEYNLI, R., "Azərbaycan ruhaniliyi XVIII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında", Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı 1996.

IVANENKO, V.N., "Grazhdanskoye upravleniye Zakavkaz'yem ot namestnichestva Velikogo knyazya Mikhaila Nikolayevicha (Istoricheskiy ocherk)", Utverzhdeniya russkogo vladychestva na Kavkaze, T. 12, Tiflis 1901, c. 136-137.